Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Bədən tərbiyəsi və idman sahəsində inkişaf texnologiyaları

*F.C.Hüseynov* [1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** inkişaf, təhsil, bədən tərbiyəsi, idarəetmə, proqram

Müasir zamanın tələbatları bədən tərbiyəsi və idman sahəsində inkişafın və təhsilin yeni idarəetmə modellərinin qurulmasının vacibliyini tələb edir. Bunun üçün bir sıra ölkələrin aparıcı idarəetmə texnologiyaların istifadəsi və innovasiyalı təkliflərin tətbiqi sahəsində təcrübənin öyrənilməsinə ehtiyac vardir. Avropa ölkələrinin bədən tərbiyəsi və idman sahəsində əyalətlərdə inkişafın idarəetmə texnologiyaların məzmunu haqqında məlumatın əldə edilməsi maraq doğurur. Müsbət nəticə əldə edilən ölkələrin təcrübəsindən faydalanma və bizim ölkədə istifadə edilməsi bədən tərbiyəsi və idmanın inkişafına təsir göstərə bilər. İlk növbədə yeni texnologiyaların son nəticələrinin, modelinin quruluşunun öyrənilməsi və təhlil edilməsi yerli idarəetmə təcrübəsində istifadə etmək olar.

Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində təhsilin yeni inkişaf mərhələsi avropa standartlarına, Boloniya deklarasiyasında əks olunan müvafiq təhsil prosesi qurulur. Bu mərhələdə bu yolu keçən və təcrübə əldə edən ölkələrin əhəmiyyətı çox böyükdür. Bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişaf nailiyyətləri həm nəzəri həm də praktiki cəhətdən bizim üçün maraq doğurur. Buna görə bu ölkələrdə təhsilin idarəedilməsində problemlərin yaradılması, eyni zaman müsbət nailiyyətlərin təhlili bu təcrübənin yerli idarəetmə sistemində istifadə etməsinə, Azərbaycanın bölgələrində yerli bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafına imkan verər və bu yeniliklərin istifadəsində səhflərin təkrarlanmasına imkan verməz (6).Avropa ölkələrində bədən tərbiyəsi və idman təhsilin inkişafı sahəsində tədqiqatların araşdırmaları ilə bir sıra alimlər məşğul olubrar F. Andruşkeviç, A.V. Vasilük, A.V. Vaxrin, Y.R. Qreçka, A.V. Karpenko və s. Təhsil müəssislərində bədən tərbiyəsi və idmanı və gənclərin digər problemləri ilə S.A. Vavrenük, E.S. Vilçkovskiy, L.P.Serqiyenko və başqaları öz işlərində əks etmişdilər. Almaniyanın, Polşanın və digər ölkələrinin təhsil müəssislərində bədən tərbiyəsi və idmanın inovasiyalı inkişafı ilə N.A. Dolqova, A.V.Koşur, Q.Yu. Nikolai və b. tədqiq ediblər. Bununla belə avropa təhsil sistemində idarəetmənin inkişafı təcrübəsi müasir elmi-pedaqoji tədqiqatlarda öz əksini tapmışdır.

İşin məqsədi avropa ölkələrinin təcrübəsindən faydalanmaq, prinsiplərin, metodların, idarəetmə sisteminin vasitə və mexanizmlərinin, bədən tərbiyə və idman sahəsində inkişaf, təhsilinin standartların məzmununu açıqlamaqdır (3,4,5). Məlumdur ki, təhsil insanın həyatı boyu sağlamlığın qorunmasının, mənfi hallara qarşı mübarizənin, bərpanın və sağlamlıq tədbirlərin silsiləli keçirilməsinin əsas



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

amillərindən biridir. Fiziki tərbiyə və idman sahəsində təhsilin inkişafı gənclərin hərtərəfli və harmonik inkişafına, məqsədli, müntəzəm fiziki hərəkət və idmanla məşğələlərin, müxtəlif idman növləri ilə hərəki fəaliyyətinin vacibliyi haqqında bilik sistemini formalaşdırır. Bədən tərbiyəsi və idman sahəsində təhsil (seminarlar, kurslar) müasir insana müasir məşq metodikasını, sağlamlığı qoruyan texnologiyaları, əhalinin müxtəlif təbəqələrinin sağlamlaşmasında yaradıcılıqla istifadə edir (9). Azərbaycanda müasir pedaqoji inkişaf təhsilin dövlət idarəedilməsinin yeni modelinin qurulmasının əsaslı yanaşmaları ilə saciyələnir. Buna görə bədən tərbiyəsi və idman, o cümlədən təhsilin dövlət idarəetməsinin modelləşdirmə sahəsində elmi iş, təhsilin idarəedilməsində müasir paradiqmaların yenilənməsinin vacib göstəricisi hesab edilir (1,2). Bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafı prosesində yeni idarəetmə texnologiyaların istifadəsi fəaliyyət göstərən idarəetmə mexanizminə müdaxilə etməni, idarəetmənin mərkəzi orqanları hüquqi və quruluş təşkilatı fəaliyyətilə başlayan təhsil müəssislərində tədrisin məzmunu və təşkili, yerli təhsilin idarə olunması və regional icra hakimiyyəti orqanlarının, yerli gənclər və idman idarələrinin idarəolunması ilə bitən düzəlişləri və bəzən idarəedilmə qərarların qəbul edilməsi zamanı əhəmiyyətli dəyişikliklər nəzardə tutur. Bununla belə qarşılıqlı fəaliyyətinin dinamik prosesi müşahidə olunmalıdır: idarəolunan şəxs - idarəetmə obyekti - obyektin modeli - modelin optimallaşdırılması - idarəetmə qərarları. Beləliklə təhsil ilə idarəetmənin yeni texnologiyaların istifadəsinə ehtiyacı yaranır (7). Bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafının idarəetmə texnologiyalarının tətbiqi modeli Avropa ölkələrinin təcrübəsini istifadə edərək Azərbaycanda istifadəsi nəzərdə tutulur. Modelin işlənməsinin strateji məqsədi Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafında, idarəetmədə Avropa ölkələrinin nailiyyətlərini istifadə etmək: bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafı ilə idarəetmə orqanların təşkilati fəaliyyətlənin təkmilləşdirilməsi, tədris müəssislərinin və təhsilin inkişafının bölgələrdə yerli idarəetmə orqanlarının fəaliyyətlərinin koordinasiyası.

Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafında idarəetmə texnologiyaları modelinin məzmununun təcrübədə istifadəsi idarəetmə texnologiyaların fəaliyyəti üzrə siyahının mövcudlüyünü göstərir və onu təhsilin idarəetmə səviyyəsində istifadəsi və ya yeniləşməsi məqsədə uyğundur:

-bölgələrdə bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafı üzrə proqramın müəyyən etmə texnologiyasının məqsədini, əsas istiqamətlərini, həyata keçirmənin vəzifə və mexanizmləri müəyyən edir, cari və gələcək fəaliyyəti birləşdirir.

Bölgələrdə bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişafı proqramı rayonlarda olan idmanın cari durumunun təhlili, müsbət və mənfi tərəflərinin müəyyən edilməsinin, bölgələrdə bu sahədə təkmilləşdirilmənin və təhsilin inkişaf ehtiyyatlarının əsasında qurulur. Bədən tərbiyəsi və idman sahəsində təhsilin inkişaf proqramı bölgələrdə mövcud olan təhsilin və idman sahəsində durumun təhlili, onun müsbət və mənfi tərəflərinin müəyyən edilməsi, bölgənin ehtiyaclarının müəyyən edilməsi, bölgəcin formalaşmış idman ənənələri və coğrafi yerləşməsi əsasında bazalaşır. Bədən tərbiyəsi və idmanın inkişaf proqramının müəyyən edilməsi lazım olan idman qurğularının miqdarının, idman sahəsində seminarların, kursların keçirilməsi, əhalininhəyat səviyyəsinin (gəlirlərin və



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

xərclərin münasibəti) müəyyən edilməsini nəzərdə tutur.

Bölgələrdə bədən tərbiyəsi və idmanın inkişafı üçün problemlər mərkəzi və icra hakimmiyyəti və idman sahəsində yerli orqanlarının qarşılıqlı əlaqəsi ilə sıx bağlıdır:

-bölgələrdə bədən tərbiyəsi və idman sahəsində proqnozlaşma və planlaşma texnologiyası maddi imkanların, idman bazalarının, kadrların səviyyəsi, elmi və məlumat təminatından asılıdır.

-bölgələrdə bədən tərbiyəsi və idmanın inkişafı ilə idarəetmə keyfiyyətinin proqnozlaşması və planlaşdırılması texnologiyası miqdarlı və keyfiyyətli dəyişikliklər həyata keçirir.

Təhsilin və idmanın inkişafı ilə komplesli idarəetmənin proqnozlaşdırılması və planlaşdırılması texnologiyasının müvafiq istiqamətlərdə prosedurları mövcuddur. Ümumi şəkildə keyfiyyətli idarəetmənin funksiyalarının məzmununu həyata keçirir. Məsələn üçün idarəetmə proseslərinə nəzarətin həyata keçirilməsi və onun effektivliyinin qiymətləndirilməsinin müəyyən edilməsi. Bölgələrdə bədən tərbiyəsi və idman sahəsində keyfiyyətli inkişafın idarəetmə prosesi ilk növbədə bütün növlərdə miqdarlı və keyfiyyətli nailiyyətlərin əldə edilməsinə istiqamətlənib. Ona fərdi komponentlər üzrə ayrı ayrı baxılması məqsədə uyğundur:

-proqnozlaşmada olan problemlərin təhlili (gələcəkdə müsbət nəticəyə aparan tədbirlər kompleksinin müəyyən edilməsi); planlaşma (məqsəd və vəzifələrin qoyulması, fəaliyyət proqramının tərtibi); lazım olan maliyyələşmənin mənbə və vəsaitlərin müəyyən edilməsi; icraçıların işinin təhlili; sənədlərin tərtibi; fəaliyyətin əlaqələndirilməsi; icra edilməsinə nəzarət;

-dövlətin idarəetmənin daxili subyekt təşkilatlarının islahatın texnologiyası effektivli idarəetmənin çatışmayan səbəblərini müəyyən edilməsini nəzərdə tutur; fəaliyyətin ayrı- ayrı aspektilərində effektivli idarəetməyə maneə olan səbəblərin və əlaqələrin müəyyən edilməsi; əyalətin bədən tərbiyəsi və idman sahəsində inkişafının idarəedilməsinin yüksəlməsi üçün tövsiyələrin işlənilməsini nəzərdə tutulur. Daxili subyekt təşkilatların yenidənqurma texnologiyası idarəetmə funksiyaların yenidən bölüşdürülməsini nəzərdə tutur; vacib olan ştat işçilərinin müəyyən edilməsi, vəzifə borclarının müəyyən edilməsi və fəaliyyətlərinin bölüşdürülməsi; vacib olan maddi, maliyyə, texniki, məlumat təminatının həyata keçirilməsi; idarəetmə subyektlərin fəaliyyətinə müvafiq nəzarət təşkilatı;

-bədən tərbiyəsi və idman sahəsində inkişafın idarəetmə orqanların fəaliyyətinin təşkili-məzmunlu tənzimləmə texnologiyası qarşılıqlı fəaliyyət prosesini müəyyən edir. Belə suallara bədən tərbiyəsi və idman sahəsində inkişaf, özünüidarəetmə orqanları yerli əhəmiyyətli istiqamətləri, bədən tərbiyəsi və idman sahəsində inkişaf üçün xərclərin idarəedilməsini aid etmət olar. Eyni zamanda yerli işlərin sərbəst həllində əhəmiyyətli payın qorunub saxlanması;

-bədən tərbiyəsi və idman sahəsində inkişafın idarəedilmə proseslərin nəzarət texnologiyaları. Nəzarət-bədən tərbiyəsi və idman sahəsində inkişaf ilə idarəetmə məqsədinə nail olmasına istiqamətlənən planların icrasının təminatı məqsədilə işin keyfiyyətinin və düzəlişlərin müəyyən etmə prosesidir. Nəzarət texnologiyası bədən tərbiyəsi və idman sahəsində daimi monitorinq ilə əlaqəlidir, onların öyrənilməsi, dəyişilməsi və müqaisəsi, idarəetmə modelləri ilə müqaisəsi, tələbatlarda və normativlərdə qoyulan təhsil standartların həlli ilə bağlıdır. Nəzarətin təsirli olması üçün o, vaxtında həyata keçirilməlidir və praktiki nəticələrə malik



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

olmalıdır. Bədən tərbiyəsi və idman sahəsində inkişaf proseslərin idarəetmənin nəzarət texnologiyaları növbəti tələbatlara cavab verməlidir: sabitlik, səmərəlilik, birləşmə yuxarı təşkilatların yoxlaması və aşağıdan nəzarət, obyektivlik, kütlə, əyanilik, səmərəlilik, planlaşdırma, iqtisadiyyat. Nəzarətin nəticələri bədən tərbiyəsi və idman sahəsində inkişaf planların və proqramların vaxtında düzəlişlərinə, planlaşmanın həyata keçirilməsində çatışmazlıqların və ehtiyyatların, idarəetmə qərarların effektivliyinin, idarəetmə təsirlərin məzmunu, metod və vəsaitlərinin düzəlişlərinin həyata keçirilməsi vacibliyin müəyyən edilməsinə təsir edir;

-operativ və cari məlumatın mübadilə təşkilinin texnologiyası - bədən tərbiyəsi və idman sahəsində daxil olan və çıxan sənədlərin təhlilini və işləniləsini əhatə edən, idarəetmə fəaliyyətinin bütün əsas növlərinin ayrılmaz hissəsidir. Bu texnologiya özündə bölgə səviyyəsində bədən tərbiyəsi və idman sahəsində inkişaf ilə idarəetmənin nəticələrinin təhlilini, vacib olan statistik, elmi və didaktik məlumatlarının mübadiləsini edərək,gələcək inkişaf və təkmilləşmə üzrə təkliflərin verilməsilə kütləvi məlumat vasitələrində onların təhsili fəaliyyətinin məzmununun açıqlanması, bədən tərbiyəsi və idman istiqamətində içtimai təşkilatlarda, təhsil müəssislərində, idman klublarında, daxili və xarici struktur bölmələrində fəaliyyət göstərən idarəetmə sisteminin, təşkilati texnologiyasını daxil edir.Milli təcrübəyə idarəetmə texnologiyaların nəticəli model blokunun istifadə edilməsi idman sahəsində təhsilin inkişaf dinamikasının monitoringinin keçirilməsini və gözlənilən nəticələrinin xarakteristikasını nəzərdə tutur. Bu məqsədlə təklif olunan idarəetmə texnologiyaların təhlilin nəticələri gələcəkdə inkişaf strategiyasının hazırlanmasında və seçimində faydalı ola bilən - SWOT istifadə edilir (8).

SWOT-un açıqlanması Strengths– güclü tərəfləri Weakness– zəyif tərəfləri Opportunities– imkanlar Threats– təhlükələr

Başqa sözlə SWOT təhlil-bu təşkilatın müsbət və zəyif tərəflərinin və xarici, daxili ətrafların təhlükələri imkanların təhlilidir.Təhlilin nəticələri üzrə təşkilatın qiymətləndirilməsi və daxili problemlərinin aradan götürülməsi mümkündür. Təhlilin açar faktorları:

- Menecment. İdarənin əməkdaşlarının potensialı və ixtisas dərəcəsi qiymətləndirilir;
- Marketinq proqramların təhlilini, şəxsi marketinq cəhdlərinin effektivliyini daxil edir;
- İşçilərin dərəcə səviyyəsi, işi, proqramın məqsəd və vəzifələrin uyğunluğu, işçilərin saxlama dəyəri müəyyən edilir;
- Təşkilat sisteminin təhlili, gəlirləri, keyfiyyəti müəyyən edilir;
- Qiymət siyasətinin təhlili, digər təşkilatların, kompaniyaların xidmətləri ilə müqaisə, endirim politikası və s.
- SWOT təhlilin keçirilmə metodologiyası

Birinci mərhələ - təhlilin parametrlənin müəyyən edilməsi, sonra cədvələ daxil edilməsi.

Cədvəl 1 SWOT təhlilin nümunəsi

| Müsbət tərəfləri | İmkanlar |
|---|---|
| 1.<br>2.<br>3.<br>4. | 1.<br>2.<br>3.<br>4. |
| **Zəyif tərəfləri** | **Təhlükələr** |
| 1.<br>2.<br>3.<br>4. | 1.<br>2.<br>3.<br>4. |



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Nəticədə Azərbaycanın bölgələrində bədən tərbiyəsi və idman sahəsində inkişafın idarəetmə texnologiyaların istifadəsinin strategiyası, keyfiyyətli idarəetmənin proqnozlaşma və planlaşma mexanizmin təkmilləşdirilməsi, operativ və cari məlumatların mübadiləsi əhalinin bədən tərbiyəsi və idman ilə məşquliyyətə, fəal istirahətin təşkili, şəxsi sağlamlığın qorunub saxlanmasına və zərərli vərdişlərlə mübarizə aparmasına təsir edir.

## Ədəbiyyatlar:

1. Совет Европы Деятельность и результаты, Служба общественных отношений, Германия, 1999,80 стр.

2. Викторов В. Новые модели управления образованием // Высшее образование Украины. – 2005. - № 2. - С. 66 - 71.

3. Мозолевий А. Содержание и принципы управления развитием образования в сфере физической культуры и спорта в Польше / О. Мозолевий // ежемесячный научно педагогический журнал "Молодежь и рынок" Дрогобычского государственного педагогического университета имени Ивана Франко № 2 (133)-2016 - С. 75 - 79.

4. Мозолевий А.Н. Методы управления развитием образования в сфере физической культуры и спорта в Польше А. Н. Мозолевий // Научные записки Тернопольского национального педагогического университета имени Владимира Гнатюка. Серия: педагогика. - 2016. - № 1.-С. 160-165.

5. Мозолевий А.Н. Место, роль, функции, цель и задача системы управления развитием образования всфере физической культуры и спорта в Польше / А.Н. Мозолевий // Педагогика формирования творческой личности в высшей и общеобразовательной школах: сб. наук. пр. / [редкол .: Т.И. Сущенко (голов. Ред.) И др.]. - Запорожье: КПУ, 2016. - Вып. 47 (100). - С. 131 - 138.

6. Образование и педагогическая наука Украины и Польши. 1991 - 2015 = Edukacja i nauka pedagogiczna Ukrainy i Polski: библиогр. покажч. / Сост : Н. И. Тарасова, Л.И. Самчук, Л.Н. Штома, Н.А. Стельмах; наук. конс. Н. Ничкало, А.С. Поделки; Мин-во образования и науки Украины, Нац. академия пед. наук Украины, Нац. пед. ун-т имени М.П. Драгоманова, Гос. научно-пед. Библиотека Украина имени В.А. Сухомлинского; - Киев: Изд-во НПУ имени М. П. Драгоманова, 2015 - 344 с.

7. Образовательные технологии: Учеб. пособие / А.Н. Пехота, А.З. Киктенко, А.Н. Любарская и др. Под ред. А.Н. Пехоты. - ИС: Изд-во А.С.К., 2003. - 255 с.

8. SWOT-анализ - основа формирования маркетинговых стратегий: Учебное пособие / Под ред. Л.В. Балабановой -2-е изд., Испр. и доп - М : Знание, 2005.- 301 с.

9. Maszczak T. Educacja fizyczna w nowej szkole:podrecznikdlastudentowwychowaniafizycznego T. Maszczak - Warszawa: AWF, 2013.- 183 s.

10. Raport explicatif relatif a la Convention contre le dopage, Conseil de l''Europe,Strasbourg,1990, p.56



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.